# SƏN KİMSƏN, ZAHİD?

(Esse)

Günortadır. Hava istidir möhkəmcə. Günəş bizi yandırmaq fikrinə düşüb? Ola bilməz! O, bizim, aran camaatının dostudur. Əkin-biçinlə məşğul olanlar əllərini göyə qaldırıb Günəşə salam verirlər.

Evə tələsirəm. Bizim tərəflərin yeniyetmələri də dərsdən çıxıb gəlirlər. Hələ bığ yerləri indi-indi tərləyir. Sağ olsunlar, mərifət əhlidirlər. Həmişə mənə salam verib, əhvalımı soruşurlar. Bilirəm, görürəm, yuxarı sinif şagirdləridir, əllərində mobil telefon, arxalarında kitab-dəftərlərini yığdıqları çantaları.

S.Vurğun küçəsini adlayıb keçəcəyik Qarabağ döyüşlərində şəhid olan Şaiq Kəlbiyevin adını daşıyan küçəyə. Öz məhəlləmizə.

Könül dünyamdan səs gəlir: Görəsən bizim gələcəyimiz olan bu cavanlar adlarının mənasını bilirlərmi? Hə, budu, gecikmirəm, başlayıram "moizə"yə:

-Biz neçə nəfərik... Hər kəs öz adının mənasını bilirmi? Ad koddu, simvoldu, o bizi bir-birimizdən fərqləndirir. Onun yaşımıza, həyata baxışımıza, bilik və bacarığımıza... heç nəyə dəxli yoxdu. İndi hər kəs öz adının mənasını izah eləsin mənə.

Əvvəl təəccüblənirlər, sonra başlayırlar... Sağ tərəfimdəki oğlan:

-Mən Əbülfəzəm, - deyir, - Həzrəti Mühəmmədin nəvəsi. Nənəm hərdən and içir: And olsun Əbülfəzin düşən qollarına. Yezidin tərəfdarları onun qollarını kəsib... Deyilənə görə, anası fars qızı imiş. İranda daha çox yada salır, ruhuna dua oxuyurlar.

-Mən Novruzam. Bu sözün mənası gün deməkdir. Martın 20-də anadan olmuşam. Bilirəm mollalar hədis söyləyir ki, Novruz bayramı Həzrəti Əlinin taxta çıxdığı gündən başlayır. Yalandı, bu bayramın yaşı bilinmir. Ta qədimdən biz dörd çərşənbədə od qalayır, odun üstündən tullanırıq. Babamın söylədiyinə görə, ta qədimlərdən biz oda sitayiş eləmişik. Atəşpərəstik.

-Mən Aslanam. Parçalayıb yeyəcəyəm bunları, deyərək məktəbli yoldaşlarını göstərir birisi.

Gülüşürük. Arıq, sısqa oğlandı. Külək bərk əssə, götürüb haralarasa aparar onu.

Boylu-buxunlu bir oğlan əlini sinəsinə qoyur və mənim adım Babəkdi, deyir. Babək Xürrəmi... Oxumuşam kitablardan: Onu ərəb istilaçılarına erməni kopoyoğlu satıb... Görürsən, ta qədimlərdən ermənilər bizim millətin düşməni olub... Əsgər gedəcəm, özü də ön cəbhəyə. Ermənı öldürməsəm, kişi deyiləm.

Bir başqası özünü təqdim eləyir:

-Müəllim, mənim ismim Hafizdir. Babam Quran əhlidir. O söyləyir ki, hər kim müqəddəs kitabımızı düzgün, olduğu kimi oxusa, o, hafiz adlanır.

Cavanlardan sonuncusu arxamızca gəlir və tez-tez öz-özünə danışır, çiyinlərini çəkir. Ağıllı, təmkinli oğlana oxşayır.

-Adımın mənasını bilmirəm, - deyir, - "Zahid" sözü nəyi bildirir, qalmışam məəttəl.

Yaddaşımı sınağa çəkirəm. Dini rəvayətlər, hədislər könül dünyamdan boylanır.

İmam Əli (Ə) buyurur:

"Dünyada zahid o kəsdir ki, səbrinə haram hakim olmasın və haram onu Allaha şükür etməkdən qafil etməsin".

İmam Əlinin (Ə) böyük fəxrlərindən biri zahidanə həyat tərzidir. O həzrətin zahidliyi barəsində nə desək də azdır. O, dünyada zahidliyin kamil nümunəsidir.

Zahid şəxs iki xüsusiyyətə malikdir:

1.Haramla üzləşdikdə səbirli olsun və özünü haramdan qorusun. Belə insan zahid adlanır. Haram mal, qeyri-qanuni ehtiras, haram vəzifə və s. onun səbir və müqavimətini pozursa, ağır libaslar geyinib bir guşədə daim ibadətlə məşğul olsa belə, zahid deyil o! Haram işlər müqabilində müqavimət göstərən şəxs isə, zahiri dünya nemətlərindən istifadə etsə də, zahiddir.

2.Həqiqi zahidin başqa bir xüsusiyyəti isə, halal malın onu ruzi verən Allahdan qafil etməməsi və daim Ona şükür etməsidir. Belə bir insan hətta əldə etdiyi halal əmlakının məhz onun özünə aid olmadığı, əksinə başqalarının da onda haqqı və payı olduğuna diqqət yetirir. "Zariyat" surəsinin 1-ci ayəsində buyurulur:

"Onların mallarında əl açanlar və məhrumlar üçün (Allahın bəyəndiyi və özləri tərəfindən müəyyənləşdirilmiş) bir haqq var idi".

Ayədə işlənən "haqq" ifadəsində iki nöqtə nəzərrdə tutulur:

1.İnsanın halal əmlakı onun əlində bir əmanətdir;

2.Yoxsul və möhtacların bu əmlakda haqqı var və onun həqiqi sahibi olan Allaha şükür məqsədilə başqalarına əl tutmalıdır. Demək, o kəsə həqiqi zahid deyilir ki, qazandığı halal malı onu Allahdan yayındırmasın və həmişə onun nemətlərinin şükrünü yerinə yetirsin.

İmam Əlidən (Ə) "zöhd" sözünün şərhi ilə bağlı nəql olunan başqa bir hədisdə belə buyurulur: "Zöhd" sözünün mahiyyəti Qurani-Kərimin iki cümləsində toplanmışdır:

1.Əlinizdən çıxan şey üçün təəssüflənməyin (yəni zahid dünya malına bağlanmaz).

2.Sizə verilən şey üçün sevinməyin (Hədid surəsi, ayə 23).

***

Özüm-özümə sual vermək istəyirəm: Görəsən Azərbaycan ədəbiyyatında zahidlik məsələsi hansı dahi sənətkarın yaradıcılığında yada salınıb? Mən daha çox görkəmli yazıçı, dramaturq, publisist, öz millətini qəflət yuxusundan ayıltmağa çalışan, məqalələrində "Molla Nəsrəddin", "İmzasız", "Dəli", "Mozalan", "Lağlağı", "Qızdırmalı" imzaları ilə çıxış eləyən Cəlil Məmmədquluzadənin seçilmiş əsərlərini yenidən mütaliə edirəm. "Niyə məni döyürsünüz?" felyetonunda oxuyuram: "A mollalar, niyə məni döyürsünüz? Olmaya, məndən qorxursunuz ki, əyilib camaatın qulağına bir neçə söz pıçıldayam, bir neçə mətləbdən agah edəm?.. O, istehza qarışıq bir gülüşlə deyirdi ki, yaşasın avam xalqın mollaları!

Mirzə Cəlil 7 yaşı tamam olmuş qızların daha oxumağa icazə verilməməsinə, yaşlı balaca qızcığazların ah-nalələrinə baxılmadan kəbin kəsilməsinə dözmür, çürük adət-ənənələrimizi beyinlərdən silməyə çalışırdı... O istəyirdi ki, insanlar din və dindarlıq kimi oyuncaqlardan əl çəksinlər, xurafatdan üz döndərsinlər, mərifətə, mədəniyyətə meyl etsinlər, ana dilimizi qorusunlar və s. Bir sözlə, onu düşündürən və daim narahat edən ən böyük problem din pərdəsi altında öz mənfəətlərini güdən, xalqı zəhərləyən ruhanilər olmuşdur.

Niyə gizlədim, mən Mirzə Cəlili böyük sevgi və məhəbbətlə oxuyuram. Elə ki, canımda ağrı, sızıltı, ürək bulanması, təzyiq... güclənir, əl atıram kitab dolabımın sol tərəfinə, dahi sənətkarın bu günlə səsləşən əsərlərinə. Və bir də görürəm o xəstəliklər baş götürüb haralarasa qaçıb. Evdə mənə bəzən irad tuturlar ki, guya ağlın çaşır, hərdən əlində kitab, öz-özünə danışırsan, gülürsən.

Mirzə Cəlilin üslubu, təhkiyə tərzi, ironiyası, şifahi xalq ədəbiyyatından bəhrələnməsi, hər bir obrazı öz dilində danışdırmaq bacarığı zövqlü oxucunu valeh etməyə bilmir.

Vay, vay, cilovu əlimdə saxlaya bilmədim, atım baş apardı. Üzümə üz bağlayıb, ucun alıb ucuzluğa getdim. Mətləbdən uzaqlaşdım. Mən axı zahidin məsələsinə Mirzə Cəlilin gözüylə baxmaq istəyirdim. Və yenə sol tərəfə əl uzadıram. "Molla Nəsrəddin"in bir nömrəsi. Jurnalın qapısında, yəni üz qabığında karikatura. Yaşlı bir kişi. Başı qarnından azı yarım metr arxada. Əllərini göyə qaldırıb. Çəkisi yalan olmasın, 150-160 kiloqram. Qarnının üstəki yazını oxuyuram:

"Millət biçarənin dərdini çəkmədən əriyib çöpə döndüm, ilahi".

Aşağıda bu sözlər yazılıb:

"Zahid ölməzdən qabaq məqsudinə çatmaq dilər,

Cənnətə uyqu ipiylə bir kəmənd atmaq dilər!"

Buyurun, baxın, haram mal yeyəyeyə o müftəxor qoca, ölümün yaxınlaşdığını hiss edərək, indi də o dünyanın cənnətinə düşmək xəyalındadır. Ay düşdü ha!... Cəhənnəmin qır qazanında yanacaq o.

...Çil xoruzun yalançı banında qonaq gəlmişdi mənə. Sevincimdən heç bilmirdim neyləyim. Qanı qara idi. Çöhrəsində əzab, ağrı var idi. Demə İskəndərlə Şeyx Nəsrullahın ardınca gedibmiş. Ha axtarıblar o lotunu tapa bilməyiblər. Mən bəzi mətləblərdən agah olmaq istəyirəm. Ağzımı açar-açmaz, o, məni gözümdən oxuyur:

-Nədi, noolub? Çıxart başından o qara-qura fikirləri, - deyir, - Tulla əlindəki qələmi, yığışdır o yazı-pozunu. Bu millətin dərdini yazdığım üçün məni döydülər, söydülər... Ömrümü, günümü göy əskiyə bükdülər.

-Ustad, axı siz özünüz demişdiniz: "Qələmin müqəddəs vəzifəsi xalqın xoşbəxtliyi yolunda çalışmaqdır."... Biz bilirik ki, siz əlinə silah alıb Azərbaycanın ərazi bütövlüyü uğrunda vuruşan yeganə ədibsiniz... Bu gün Bakıda, Naxçıvanda, adınızı daşıyan rayonda heykəliniz ucalır. Müstəqil, suveren Azərbaycan dövlətinin böyük memarı, ümummilli liderimiz Heydər Əliyev sizin haqqınızda demişdir:

"Cəlil Məmmədquluzadə Azərbaycan tarixində görkəmli yer tutmuş dahi insan, yazıçı, publisist, filosof, mütəfəkkir, xalqımızın mədəniyyətini çox zənginləşdirmiş bir şəxsiyyətdir. O, ədəbiyyatımızın, mədəniyyətimizin klassikidir, o, bu gün də bizimlədir, bizim sıralarımızdadır. Bizimlə bərabər Azərbaycanın müstəqilliyinə sevinir və bizimlə bərabər Azərbaycan Respublikasının daim müstəqil dövlət olması uğrunda öz yaradıcılığı ilə, qoyduğu mənəvi irslə çalışmaqdadır".

Dərindən nəfəs alır, sifəti nurlanır.

-Ruhu şad olsun Heydər Əliyevin-deyir.

Az keçmir ki, özünəməxsus ironiya ilə yenə sataşır mənə:

-Tulla əlindəki qələmi. Get Həccə, Kərbəlaya, Məşhədə, sonra gəl Biləsuvara, gey yaşıl rəngli əba, başında əmmamə, ayağında çust... Ol əsl zahid! Ata evində qarımış qızlara söz at, əri ölən gəlinlərə söz at... Yas təziyyələrində moizə oxu, mollalıq elə, kim biləcək ki, sən savadlısan, yoxsa bisavad.

Azacıq qırışığım açılır:

-Ustad, mən heç, sən qələmi belə ucuz tutma ha! Yadına salım: "Qurani-Kərim"də "Qələm" surəsi var. Onun birinci ayəsi belədir: And olsun qələmə. İkinci ayədə oxuyuruq: And olsun qələmlə yazana!

...Alatorandı. Çıxıb gedəcək indicə. Ürəyimdə gəzdirdiyim bir sorğuma da cavab almaq istəyirəm.

-Bağışlayın, ustad, Həmidə xanım xatirələrində yazır ki, siz ölüm şərbətini içməzdən öncə əlyazmalarınızı sobaya atıb yandırıbsız ki, uşaqlar soyuqdan üşüməsin. Orda nə yazmışdınız?

Mənə çəpəki baxır:

-Gələrsiz axirət evinə, görüşərik, deyərəm hansı əsərimi cızma-qara eləmişdim, o dünyada.

Bu sözlərdən sonra dahi sənətkar yox olur. Və yaddaşımın işıq düşən tərəfində Əli bəy Hüseynzadənin aforistik bir fikri canlanır:

"Mirzə Cəlilin gülüş pərdəsini qaldırsan, onun göz yaşlarını görərsən, fəryadını eşidərsən".

***

Suriyanın Hələb şəhəri. Sultana xəbər göndərilir:

-O mürtədi necə mühakimə edək? Amma lətif şeirləri var ha!..

Cavab gecikmir:

-Dərisini soyun, başını kəsin, tez mənə çatdırın ki, qanını içim o Allahsızın.

Edam kürsüsündə ölümünü mərdi-mərdanə qarşılayan İmaməddin Nəsiminin sözləri yadıma düşür:

"Zahidin bir barmağın kəssən, dönüb haqqdan qaçar, Gör bu miskin aşiqi sərpa soyarlar, ağlamaz!"

**Əlibala Rəhimov,**
**publisist, filoloq**
**"Qızıl qələm" mükafatı laureatı,**
**Biləsuvar rayonu**

**ELANLAR**

Samux rayon Aqrar İslahat Komissiyasının 15.12.1997-ci il 08 saylı qərarı ilə Alıuşağı kənd sakini Hacıyev Xaqani Hacı oğlunun adına verilmiş 24.08.1998-ci il tarixli JN-330, Kod:50706028 nömrəli Dövlət aktı itdiyi üçün etibarsız sayılır.

***

Axundova Səkinə İsgəndər qızına məxsus 502013019577 və 502013019194 reyestr nömrəli torpaq sahələrinə verilmiş çıxarışlar və torpaq sahəsinə dair "torpaq sahəsinin plan və ölçü"ləri itdiyi üçün etibarsız sayılır.

***

Rəmixanova Könül Zayid qızına məxsus tələbə bileti, şəxsiyyət vəsiqəsi və təqaüd kartı itdiyi gündən etibarsız sayılır.

***

Bakı şəhəri, 7 saylı Yol İstismarı idarəsinin 22 may 2006- ci il tarixində verilmiş Dövlət Qeydiyyatı haqqında Şəhadətnamə və İdarənin ƏDV qeydiyyatına alınmasına dair VÖEN N9900020451 saylı bildirişi itdiyi üçün etibarsız sayılır.

Məzahir Əhmədoğlu Şəki İqtisad Məhkəməsinin sədri **Üsaməddin Osmanova** əzizi

**Cəbrayıl Kərimovun**

faciəli vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.